# Kürd kəndində görüş-qəbul keçirilib

***Qəbələdə ənənəvi hal alan, rayon icra hakimiyyəti başçısının keçirdiyi səyyar qəbul və görüşlər sakinlərin qaldırdıqları problemlərin həllini tezləşdirməklə əhali tərəfindən razılıqla qarşılanır.***

***Növbəti səyyar görüş-qəbul mayın 22-də rayonun Kürd kəndində keçirilib.***

Kürd kənd tam orta məktəbində baş tutan görüşdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, RİH aparatının məsul işçiləri, hüquq mühafizə orqanlarının, dövlət idarə, müəssisə və təşkilatlarının, xidmət sahələrinin rəhbərləri və kənd sakinləri iştirak edib.

Görüş-qəbulu giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev səyyar qəbulların məqsədinin, yerlərdə ortaya çıxan problemlərin öyrənilməsi və həlli istiqamətində addımların atılması olduğunu qeyd edib. Bu cür görüşlərin ölkə başçısının tapşırığı ilə mütəmadi keçirildiyini bildirən Səbuhi Abdullayev rayonda vətəndaşların müraciətlərinə həssas münasibət göstərildiyini və həlli istiqamətində görülən işlərin diqqət mərkəzində saxlanıldığını vurğulayıb.



Səbuhi Abdullayev ötən müddət ərzində Kürd kəndində də xeyli işlərin görüldüyünü, sakinlər tərəfindən qaldırılan problemlərin həll edilməsi üçün mühüm addımlar atıldığını, onlarla keçirilən hər bir görüşdən sonra ərazidə xeyli abadlıq və quruculuq işlərinin görüldüyünü diqqətə çatdırıb.

RİH başçısı həmçinin son illər ərzində Kürd kəndində yeni məktəb binasının inşa olunduğunu, kəndin tamamilə qazlaşdığını, əlavə subartezian quyusunun qazıldığını və əhalinin problemlərinin həlli, sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən bütün tədbirlərin Prezident cənab İlham Əliyevin Qəbələ rayonuna göstərdiyi diqqət və qayğının əyani təzahürü olduğunu qeyd edib.



Səbuhi Abdullayev sonra kənd sakinlərinin təklif və müraciətlərini dinləyib. Müraciət edən vətəndaşlar yay mövsümündə təsərrüfatların suvarma suyu ilə təchizatının yaxşılaşdırılmasına, kənd yolunun asfaltlaşdırılmasına və işıq xətlərinin təmir olunmasına köməklik göstərilməsini xahiş ediblər.

Sakinlərin onları narahat edən məsələlərlə bağlı verdikləri sualları ətraflı cavablandıran Səbuhi Abdullayev qaldırılan məsələlərin həlli istiqamətində aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**“Qəbələ”**

# Fənn olimpiadasında uğur qazanmışlar

***Rayonun ümumtəhsil məktəblərinin 12 nəfər şagirdi Bakı şəhərində keçirilən Respublika fənn olimpiadasının final mərhələsində iştirak etmişlər. Onların 6 nəfəri müxtəlif fənnlər üzrə yüksək nəticə qazanaraq fənn olimpiadasının qalibi olmuşlar. Qaliblərə Azərbaycan Respublikası Təhsil Nazirliyinin gümüş və bürünc medalları təqdim olunmuşdur.***

Mayın 29-da Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev olimpiadanın final mərhələsində müvəffəqiyyət qazanmış Qəbələ məktəblilərini qəbul edib.



Görüş zamanı şagirdləri təbrik edən Səbuhi Abdullayev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan təhsil islahatlarından, dövlət tərəfindən təhsil müəssisələrinin əsaslı təmir edilməsi, yenilərinin tikilməsi, onların maddi-texniki təchizatının möhkəmləndirilməsi sahəsində görülən işlərdən danışıb və bütün bunların Azərbaycanın xoşbəxt gələcəyinə hesablandığını diqqətə çatdırıb. RİH başçısı qeyd edib ki, son dövrlərdə Qəbələ rayonda da təhsil müəssisələrinin ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə öz müsbət təsirini göstərib.

Görüşdə olimpiada qaliblərinə rayon icra hakimiyyətinin fəxri fərmanları və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, respublika fənn olimpiadasında şəhər 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi Gülsüm Quluyeva Azərbaycan dili fənni üzrə gümüş medala, Mıxlıqovaq kənd tam orta məktəbin X sinif şagirdi Röyal İsmayılov coğrafiya fənni üzrə gümüş medala, Həmzəli kənd tam orta məktəbinin şagirdlərindən X sinif şagirdi Turac Tahirova coğrafiya fənni üzrə gümüş medala, XI sinif şagirdi Dilbər Ağayeva kimya fənni üzrə - bürünc medala, Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Sona Pənahlı kimya fənni üzrə bürünc medala və Nohurqışlaq kənd tam orta məktəbinin IX sinif şagirdi Məleykə Abuşova isə bürünc medala layiq görülüblər.

**”Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2018-ci İLİN İYUN AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Daşca kəndi | 5.06.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Bılıx kəndi | 12.06.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Həzrə kəndi | 20.06.2018 | İcra nümayəndəliyi, saat $15^{00}$ |
| Savalan kəndi | 25.06.2018 | Kənd məktəbi, saat $15^{00}$ |

Qəbula təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri dəvət olunurlar.

# Dəyirmi masa

Qəbələ Mədəniyyət Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətin 100 illiyinə həsr olunmuş “dəyirmi masa” təşkil edilib.

Əvvəlcə mərkəzin foyesində həvəskar rəssamların əsərlərindən hazırlanmış rəsm sərgisinə baxış keçirilib.

Sonra isə tədbir “dəyirmi masa” ətrafında davam etdirilib. İsmayıllı Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi Nargilə Qafarova tədbiri açaraq Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı ətraflı məlumat verib.

Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Zərxanım Ağayeva, mədəniyyət mərkəzinin direktoru Malik Ağayev, incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev və mədəniyyət mərkəzinin işçisi Fidan Şirinova çıxış edərək 1991-ci ildə müstəqilliyinin bərpasına nail olan respublikamızın özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını, Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini yenidən qəbul etdiyini, ADR-in dövlətçilik tariximizdə ilk parlamentli respublika olduğunu bildiriblər.

**Anar RÜSTƏMLİ.**

# Xatirə günü

***Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günü ilə əlaqədar tədbir keçirilmişdir.***

***Tədbir iştirakçıları Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuşlar.***

Fondun Qəbələ Rayon Şöbəsində davam edən mərasimi şöbənin müdiri Elçin Əliyev açmış, ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Elçin Əliyev çıxışında ümummilli liderin siyasi fəaliyyəti və müasir tariximizdə rolu haqqında geniş məlumat verərək, dövlət müstəqilliyimizin möhkəmlənməsi, ölkəmizdə siyasi və iqtisadi sabitliyin, davamlı inkişafın təmin olunması istiqamətində müstəsna xidmətlərindən söz açmışdır.

Şöbənin əməkdaşı Elçin Məmmədov ulu öndər Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində mürəkkəb tarixi dövrdə Azərbaycanda siyasi sabitliyə nail olmasından, bununla da bugünkü tərəqqinin əsasının qoyulmasından danışaraq, bütün bunların hamımızın gözü önündə baş verdiyini qeyd etmiş və bu tarixin gələcək nəsillərə çatdırılmasının vacibliyini bildirmişdir.

Fondun işçisi Tahir İsmayılov isə çıxışında ötən əsrin 90-cı illərində Azərbaycanda yaşanan xaos, parçalanma və vətəndaş qarşıdurmasının qabağının alınması və sabitliyin təmin olunması ilə bağlı ümummilli lider Heydər Əliyevin qətiyyətli idarəetmə məharətindən bəhs etmişdir. O, bildirmişdir ki, məhz bu dahi şəxsiyyətin polad iradəsi nəticəsində Azərbaycanı uçuruma aparan vətəndaş qarşıdurmasının, separatçılığın qarşısı alınmışdır.

Çıxış edənlərdən Cavid Şirinov və digərləri Heydər Əliyev təcrübəsinin bu gün hər kəsə örnək olduğunu və onun irsinin təbliğinin gələcəkdə də dövlətçiliyimizə çox böyük fayda verəcəyini bildirmişlər.

**Orxan İSGƏNDƏRLİ,**
**ƏƏSMN yanında DSMF rayon şöbəsinin əməkdaşı.**

# Yürüşdə iştirak etmişlər

***Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən şəhər 1 nömrəli məktəbdə ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə tədbir keçirilmişdir. Tədbirdə UADM-nin əməkdaşları, məktəbin müəllimləri və şagirdləri iştirak etmişlər.***

Çıxış edən natiqlər Heydər Əliyevin səyi nəticəsində Azərbaycanın dönməz müstəqilliyə, inkişafa, tərəqqiyə qədəm qoyduğunu qeyd etmişlər. Bütün həyatını doğma xalqına sərf edən, milli dövlətçiliyin əsasını qoyan dahi liderin hakimiyyətə gəlməsi ilə çox qısa bir müddətdə ölkədə vətəndaş müharibəsinin alovlarının söndürüldüyü, Ermənistanla müharibədə atəşkəsə nail olunduğu diqqətə çatdırılıb.

Daha sonra tədbir iştirakçıları Zarağan kənd 2 №-li tam orta məktəbi tərəfindən təşkil olunmuş yürüşdə iştirak etmişlər.

**Sarışın YAŞARQIZI,**
**mərkəzin sosial iş üzrə mütəxəssisi.**